**Zaur Rauf oğlu ƏSƏDOV** i.ü.f.d
ADNSU-nun "Sənayenin iqtisadiyyatı" kafedrasının., müəllim,
ORCID: 0000-0002-4205-4109
E-mail: asadovz@mail.ru

**Sevinc Ağabala qızı MƏMMƏDOVA**
ADNSU-nun "Sənayenin iqtisadiyyatı" kafedrasının laborantı,
E-mail: n.a.mamedova.87@gmail.com

# İNSAN KAPİTALININ KEYFİYYƏTİNİN VƏ ONDAN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI YOLLARI

**Xülasə**

Müasir tələblərə cavab verə bilən müxtəlif səviyyəli mütəxəssislərin hazırlanmasının səmərəliliyini artırmadan innovativ iqtisadiyyata keçid mümkün deyil. Üstəlik, innovativ iqtisadiyyat üçün təkcə keyfiyyətli təhsil almaq deyil, habelə fədakarlıq, hərəkətlilik, işə yaradıcı və əxlaqi əxlaqi münasibət, ömür boyu öyrənmək bacarığı və s. kimi şəxsi keyfiyyətləri inkişaf etdirmək vacibdir ki, bütün bunlar da insan kapitalı ilə bağlıdır. Həmin kapitalın səmərəli inkişafı vətəndaş cəmiyyətinin,dövlətin, təhsil müəssisələrinin və biznes subyektlərinin birgə səylərini tələb edir. İnsan kapitalının önəmliliyinin diqqət mərkəzində qalması və onun inkişafı üçün səylərin gələcəkdə də davam etməsi və dərinləşməsi vacibdir. Qeyd edilənlər baxımından məqalənin mövzusu aktuallığı ilə seçilir. Məqalədə insan kapitalının iqtisadiyyatda rolu, onun iqtisadi kateqoriyalarla qarşılıqlı əlaqəsi, investisiyalaşdırılmasının zəruriliyi, inkişaf səviyyəsini əks etdirən bəzi göstəricilər tədqiq edilmiş, keyfiyyətinin və istifadəsinin yaxşılaşdırılması yolları araşdırılmış, bununla bağlı tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** insan kapitalı, innovasiya, investisiya, təhsil, səhiyyə, rəqabət

**JEL: H52; H75; E24, J24**
**UOT**: 330
**DOI:** https://doi.org/ 10.54414/YRJL3241

**Giriş**

İnnovativ iqtisadiyyatın - ETT-nin yüksək önəm daşıdığı biliklər iqtisadiyyatının formalaşmasında əsas amil insan kapitalıdır. İnsan kapitalı fərdlərin malik olduqları və onları iqtisadi cəhətdən məhsuldar edən bilik, peşəkar keyfiyyətlər və təcrübənin məcmusudur. İnsan kapitalı təhsil, səhiyyə və peşə təhsilinə investisiyalar vasitəsilə artırıla bilər. İnsan kapitalı bir çox ölçülərə malikdir və müxtəlif yollarla - evdə, təhsil müəssisələrində, iş yerində və s. əldə edilə bilər. İnsan kapitalı iqtisadi resurs kimi özünün xüsusi önəm daşıdığını sübut edir. Anlamaq lazımdır ki, insan kapitalının kəmiyyəti ilə yanaşı, keyfiyyəti də vacibdir. Bu resursun konstruktivliyinin, kreativliyinin və innovativliyinin artırılması uzunmüddətli uğurların əldə edilməsində və müasir dünyanın çağırışlarının öhdəsindən gəlməkdə əsas amildir. İnsan kapitalı iqtisadi inkişafda, sosial tərəqqidə və ictimai rifahda əsas rol oynayır. Bu resursun inkişafı məqsədilə təhsil, səhiyyə, elm və texnologiyaya investisiyalar davamlı iqtisadi artımı təmin etmək və əhalinin yaşayışını yaxşılaşdırmaq üçün strateji önəm daşıyır.

**İnsan kapitalının formalaşması və inkişaf etdirilməsi xüsusiyyətləri**

Müasir şəraitdə insan kapitalı inkişafın müəyyənedici amillərindən biri olsa da, ondan səmərəli istifadə edilməsi zəruridir. Tədqiqatlardan görünür ki, dövlətin inkişafının əsas göstəricisi kimi təbii sərvətlərin çoxluğu deyil, bu sərvətləri hərəkətə gətirən və cəmiyyətin aparıcı qüvvəsi olan insan kapitalıdır. ABŞ, Cənubi Koreya, Yaponiya və s. kimi qabaqcıl ölkələr gəliri daha çox təbii resurslardan deyil, insan kapitalından əldə ediblər [4, s.21]. İnsan kapitalı təhsil, səhiyyə, xüsusi təlim və işçi

qüvvəsinin hərəkəti ilə bağlı yığılmış xərcləri təmsil edir və məcmu kapitalın bir hissəsidir.

Müasir şəraitdə ölkənin iqtisadi uğurunun həlledici amilləri milli insan potensialının xüsusiyyətləridir. Onları qiymətləndirərkən, son vaxtlara qədər əsas diqqət işçilərin təhsil səviyyəsinə, ixtisasına və peşə səriştəsinə, yəni ölkə əhalisinin topladığı insan kapitalına yönəldilirdi. Lakin bu amilin iqtisadi artıma töhfəsi təkcə ixtisaslı və savadlı işçilərin yüksək məhsuldarlığı ilə bağlı deyil. Komandada işləmək bacarığı, müsbət münasibət, emosional sabitlik, özünə inam, əməkdaşlığa hazır olmaq, dözümlülük, məsuliyyət, çağırışı qəbul etmək və dəyişikliyə hazır olmaq bacarığı kimi qeyri-koqnitiv (təhsillə əlaqəsi olmayan) xüsusiyyətlər də eyni dərəcədə önəmlidir[7, s. 133].

İnsan kapitalının formalaşmasının qeyd olunan xüsusiyyətləri onun reallaşdırılması imkanlarını xeyli dərəcədə müəyyənləşdirir. Çox şey təhsil, peşəkar bilik və bacarıqlar toplusu ilə müəyyənləşdirilir. Əhali və insan kapitalının bacarıq səviyyəsi artdıqca, hətta məhdud resurslar şəraitində belə böyük iqtisadi artıma səbəb ola biləcək sinergetik effekt yaranır. İnsanın təsərrüfat fəaliyyəti, işə münasibəti, ehtiyacların strukturu və motivasiyası tərbiyədən xeyli dərəcədə təsirlənir. İşçinin məhsuldarlığı onun nə qədər təşəbbüskar, intizamlı, ləyaqətli, fiziki və əqli cəhətdən sağlam, vətənpərvər, ambisiyalı və qanunlara tabe olmasından asılıdır. Öz növbəsində insan kapitalının motivasiya kimi elementi onun formalaşması və istifadəsi prosesinin tam başa çatması üçün çox mühüm və zəruridir.

İnsan kapitalının toplanması fiziki və maliyyə kapitalının toplanması prosesinə bənzəyir və gələcəkdə nağd gəlir əldə etmək üçün vəsaitlərin cari istehlakdan yayındırılmasını tələb edir. Bu tip aktivlər arasında əsas fərqlər ondan ibarətdir ki, insan kapitalı alına və ya satıla bilməz, o, yalnız müəyyən müddətə istifadəyə verilir, daimi öyrənmə tələb edir, hərəkət prosesində öz daxili xüsusiyyətlərini dəyişir. İnsan kapitalının toplanması birbaşa sosial kapitalın toplanması ilə bağlıdır, çünki onun bir hissəsi sosial şəbəkələrin inkişafı, qarşılıqlı məlumat mübadiləsi yolu ilə yaradılır. Sosial kapitala informasiya, ideyalar, inam, əməkdaşlıq, emosional dəstək və s. daxildir. Bir şirkətin sosial kapitalı xüsusi rəftar tələb edir, çünki bu, təkcə şirkətdə bilik və məlumatların ötürülməsinin uğurunu müəyyənləşdirmir,onun maliyyə göstəricilərinə birbaşa təsir göstərir.

İnsan kapitalının inkişaf səviyyəsi müxtəlif göstəricilərdə öz əksini tapır. İqtisadi artımla bağlı tədqiqatlarda insan kapitalının inkişaf göstəriciləri kimi əhalinin təhsil səviyyəsi, ÜDM-ə nisbətən təhsil və səhiyyə xərcləri, gözlənilən ömür uzunluğu, doulanlar və ölənlərin nisbəti, insan kapitalı və insan inkişafı indeksləri və s. istifadə olunur. Bu göstəricilər müxtəlif ölkələrdə və qlobal miqyasda insan kapitalının iqtisadi artıma təsirini qiymətləndirməyə imkan verir. İnsan kapitalı indeksinin artımı ilə adambaşına düşən ÜDM arasında müsbət birbaşa əlaqə var. İnsan kapitalı yüksək səviyyədə olan ölkələrin insan kapitalı aşağı səviyyədə olan ölkələrlə müqayisədə orta hesabla daha yüksək gəlir səviyyəsi var.

Ölkədə insan kapitalının səviyyəsinə təsir edən bir neçə aspekti ayırmaq olar:

• həyat səviyyəsi və uzunömürlülük;
• əhalinin savadlılıq və təhsil səviyyəsi;
• tibbi xidmətin vəziyyəti;
• elmi-texniki inkişaf sferasının vəziyyəti [6, s.29].

Bütün bu göstəricilər ölkədə insan kapitalının hazırkı vəziyyətinin ən dəqiq və obyektiv qiymətləndirilməsini təmin etmək məqsədilə nəzərdə tutulmuş insan inkişafı indeksinin hesablanmasında istifadə olunur. Həmin göstərici də təkcə əhalinin təhsilini və sağlamlığını deyil, habelə innovasiya və texnoloji tərəqqi potensialını əks etdirən hərtərəfli göstərici kimi çıxış edir.

2023-cü ildə BMT-nin İnkişaf Proqramının 193 ölkə üzrə insan inkişafı göstəricinin qiymətləndirmələrinə əsasən bu indeksə görə Azərbaycan 2022-ci ilə görə 3 pillə geriləməklə (2023-cü ildə 0-1 intervalı arasındakı maksimum dəyərdən 0, 745, 2022-ci ildə isə 0,760 balla qiymətləndirilib ) balla 92-ci yerdə qərarlaşıb [10].

Aydındır ki, insan kapitalının keyfiyyətini əks etdirən göstəricilər üzrə ölkənin dünya reytinqində öz yerini yaxşılaşdırmaq məqsədiləhəmin kapitalın inkişafı ilə bağlı problemləri obyektiv müəyyənləşdirməli və optimal həll etməlidir. Belə problemlərin həlli bu

sahədə dövlət siyasəti və strateji sistemli tədbirlərlə bağlı ola bilər.

**İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi amilləri**

Azərbaycanda son dövrlərdə insan kapitalının keyfiyyətinin yüksəldilməsinə və səmərəli istifadəsinə böyük önəm verilir. Çünki, milli iqtisadiyyatın davamı olaraq modernləşdirilməsi və neft-qaz sektorundan asılılığın azalması şəraitində ölkənin rəqabət qabiliyyəti insan kapitalının keyfiyyətindən getdikcə daha çox asılı olur. Əmək məhsuldarlığının və ölkənin dünya birliyində rəqabət qabiliyyətinin artırılmasına xidmət edən insan kapitalının keyfiyyətidir.

İqtisadiyyatın və cəmiyyətin inkişafında intensiv istehsal amilinin təbii ehtiyatlar deyil, insan kapitalı olduğundan onun inkişafına dövlət, firma və fiziki şəxslər tərəfindən böyük diqqət yetirilməlidir. İnsan kapitalının formalaşmasında dövlət önəmli rol oynayır. Əhalinin təhsili və sağlamlığı üçün şərait yarada bilər ki, bu da məhsuldarlığın artmasına və iqtisadi artıma səbəb ola bilər. Bundan əlavə, hökumət insan kapitalına sərmayə yatırmaq üçün maliyyə dəstəyi verə bilər. Ölkənin gələcəyi dövlətin və müəssisələrin insan kapitalının yaradılmasına necə sərmayə qoyacağından, onun istifadəsindən asılıdır.

İnsan kapitalına investisiyalar təkcə təhsilə, səhiyyəyə və digər sosial proqramlara maliyyə qoyuluşları şəklində deyil, habelə insanların yaradıcılığını və innovativliyini artırmaq üçün investisiyalar şəklində istifadə olunur. Bu aspektlərin inkişafı bütövlükdə cəmiyyətin məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsi üçün əsas amildir. Yaradıcılıq innovasiya və tərəqqiyə töhfə verən yeni ideyalar, yanaşmalar və həllər yaratmaq qabiliyyətinə aiddir. İnnovativlik dəyişən şərtlərə uyğunlaşmaq, nəticələri yaxşılaşdırmaq və səmərəliliyi artırmaq üçün yeni texnologiyalar və iş üsullarını tətbiq etmək bacarığı deməkdir. Bu cür investisiyalar geniş mənada insan kapitalının inkişafına, bu isə dayanıqlı iqtisadi artıma və cəmiyyətin rifahına töhfə verir. Bununla belə, həmin kapitala investisiyalar təkcə təhsil sektoruna xərclərlə məhdudlaşa bilməz.

Xaricdə insan kapitalına investisiyalar müxtəlif ölkələrin iqtisadiyyatının sabit vəziyyətini və işinin səmərəliliyinin yüksəldilməsini təmin edir. Məsələn, ABŞ-da həmin kapital ölkənin milli sərvətinin 70%-dən çox hissəsini təşkil edir.

İnsan kapitalına investisiyalar təkcə insanın özü tərəfindən deyil, habelə işlədiyi müəssisə tərəfindən edilə bilər, çünki savadlı və ixtisaslı işçi təhsil almamış işçidən yaxşıdır. İnsan kapitalı fərdin mülkiyyətidir, lakin firmadakı işçilərin məcmusu onun insan kapitalı hesab olunur. Onun ölçüsü bir çox amillərdən asılıdır: təhsil səviyyəsi, öyrənmə qabiliyyəti, iş və həyat təcrübəsi, sağlamlıq vəziyyəti. Şirkətdaxili ənənələrin və korporativ mədəniyyətin potensialı da müəssisənin unikal sərvətidir və onun rəqabət qabiliyyətinin artırılmasına kömək edir.

İnsan kapitalına investisiyanın əsas mənbələrindən biri kimi ailənin rolu da qeyd olunur, çünki həmin kapitalın tərkib hissələri məhz ailədə formalaşır. Onlar uşaq üçün layiqli həyat standartını və keyfiyyətini təmin etməklə əldə edilir. Ailələrə potensialının üzə çıxarılmasında səmərəli yardımın göstərilməsi üçün valideynlərə könüllü pedaqoji konsultasiyalar verilməli və uşaqların təhsili, tərbiyəsi və inkişafı məqsədilə köməklik sistemi inkişaf etdirilməlidir.

İnsan kapitalının inkişafına bilik iqtisadiyyatını inkişaf səviyyəsi önəmli dərəcədə təsir göstərir. Bilik iqtisadiyyatı ETT-nin sürətlənməsi, İKT-nin və rəqəmsallaşmanın inkişafı ilə müəyyənləşdirilir. Belə bir iqtisadiyyat növü keyfiyyətli xidmətlərə, yüksək texnologiyalı biliklərin istehsalına, innovasiyaların əldə edilməsinə və ümumən həyat keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verir [5, s.67].Ölkənin insan kapitalının keyfiyyətinin yüksəldilməsinə və səmərəli istifadəsinə dövlətin təhsil və səhiyyə sahəsində reallaşdırdığı müxtəlif xarakterli tədbirlər kömək edir. Azərbaycanda bu istiqamətdə köklü dəyişikliklərə gətirib çıxaran tədbirlər görülür. Bu iki amil geniş mənada həmin kapitalın əsas hissəsini təşkil edir.

İstənilən ölkənin inkişafı və uğurlu gələcəyi təhsilin səviyyəsi əsasında müəyyənləşdirilir. Təhsilə investisiya qoyuluşu ölkənin iqtisadi inkişafı üçün ən səmərəli strategiyadır və Azərbaycanda indiki inkişaf mərhələsində insan kapitalının formalaşmasında əsas amilə çevrilir. Habelə, əsas təhsil əməyin səmərəliliyini artırır və biznesin inkişafına kömək edir. Ali təhsil və

təlim dəyişən şərtlərə və istehsal sisteminin artan ehtiyaclarına tez uyğunlaşa bilən yüksək ixtisaslı işçilərin formalaşmasına kömək edir. Hazırda Azərbaycanda təhsilin əsas maliyyələşdirmə mənbəyi dövlət büdcəsidir. 2023-cü ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclərin xüsusi çəkisini şəkil 1-dən aydın görə bilərik.




**Şəkil 1. Azərbaycanın 2023-cü il üzrə dövlət büdcəsinin xərc istiqamətlərinin xüsusi çəkisi**
***Mənbə:*** *[8;9]*

2023-cü ildə Azərbaycanın büdcə xərclərinin 36457,96 milyon AZN olub ki, bunun 11,31%-i təhsil xərclərinin payına düşüb. İnsan kapitalının yaxşılaşdırılmasına yönəldilən digər xərc istiqaməti səhiyyə xərcləridir ki, bu da ümumi büdcənin 4,72%-ni təşkil etmişdir. Büdcədə ən çox təhsil xərcləri 11,53% olmaqla 2022-ci ildə, səhiyyə xərcləri isə 6,39% olmaqla 2020-ci ildə təşkil edib. 2020-ci ildə səhiyyə xərclərinin digər illərə görə xeyli artırılmasının əsas səbəbi COVİD-19 pandemiyasının yayılması olmuşdur. Ümumi həcminə gəlincə, ən çox 2023-cü ildə büdcədən təhsilə və səhiyyəyə müvafiq olaraq 4124,83 və 1722,14 milyon AZN olmaqla xərclər ayrılıb ki, bu da bütün dövrlər üzrə ən yüksək göstəricidir.

Azərbaycanda son illər dövlət büdcəsi xərclərinin 10%-dən çoxu təhsil sektorunun inkişafına ayrılır (şəkil 2).İnsan kapitalının inkişaf səviyyəsi birbaşa ÜDM-lə əlaqəlidir. ÜDM-in adambaşına cari qiymətlərlə həcmi iqtisadi artımı xarakterizə edən göstəricidir. Bu göstəricinin artımı ölkə iqtisadiyyatında insan kapitalının rolunun müəyyənləşdirilməsində önəmlidir. 2023-cü ildə Azərbaycanda ÜDM-in həcmi 1223005,5 milyon AZN olub ki, bu da 2022-ci il istisna olmaqla digər illərə görə ən yüksək göstəricidir. 2022-ci ildə bu göstəricinin həcmi 133972,7 milyon AZN olub ki, bu da 2023-cü ilə görə 10967,2 milyon AZN və ya 8,9% çoxdur. ÜDM-də təhsil və səhiyyə xərclərinin müxtəlif illər üzrə xüsusi çəkisini təhlil etmək üçün şəkil 3-ə diqqət yetirək.

Şəkil 3-dən görünür ki, təhsil və səhiyyə xərclərinin əsas göstərici olan ÜDM-də xüsusi çəkisi ən çox 2020-ci ildə olmuşdur ki, bunun da əsas səbəbi məhz COVİD-19 pandemiyası olmuşdur. Çünki, səhiyyə xərclərinin artması COVİD-19 pandemiyası nəticəsində xəstəliklərin artması ilə bağlı olmuşdur. Təhil xərclərinin ÜDM-də əvvəlki illərə yüksək xüsusi çəkiyə malik olmasının əsas səbəbi də COVİD-19-la bağlı olmuşdur. Belə ki, həmin ildə məhdudiyyətlərin tətbiqi səbəbindən ÜDM-in həcmi kəskin azalmışdır. Bu azalma 2019-cu ilə görə 12,84%, 2021-ci ilə görə isə 28,4% olmuşdur.




**Şəkil 2. 2015-2023-cü illərdə təhsil və səhiyyə xərclərinin büdcə xərclərində xüsusi çəkisi**
***Mənbə:*** *[8;9]*




**Şəkil 3. 2015-2023-cü illərdə ÜDM-də təhsil və səhiyyə xərclərinin xüsusi çəkisi**
***Mənbə:*** *[8;9]*

Azərbaycanda təhsil sisteminin inkişafı üçün institusional dəyişikliklərə ehtiyac var:

1. Təhsil prosesində müasir texnologiyalardan istifadəni nəzərdə tutan texnoloji inteqrasiya, o cümlədən ölkənin istənilən yerində təhsilə çıxışı təmin edəcək onlayn təhsildən istifadə.

2. Təhsil səviyyəsinin bazar tələblərinə uyğun yüksəldilməsi. Yeni təhsil standartı daha çox əmək bazarının tələblərinə, o cümlədən müəssisələrin təlim və təcrübə proqramlarının hazırlanmasına fəal cəlb edilməsinə yönəldilməlidir.

3. Gələcək bacarıqların inkişafı və yeni proqramların qəbulu. Bunlar bizə ünsiyyət qurmaqı, yaradıcılıq və problemi həll etmək kimi bacarıqların inkişafına diqqəti yenidən nəzərdən keçirməyə imkan verir.

4. İxtisaslı müəllimlərin cəlb edilməsi. Müəllimlərin hazırlanmasına və ixtisasının artırılmasına, eləcə də təhsilin keyfiyyətinin yüksəldilməsində əsas amil olan onların stimullaşdırılmasına investisiya tələb olunur.

Aydındır ki, ölkə iqtisadiyyatında ixtisaslı mütəxəssislərə daha az tələbat olan sektorlar üstünlük təşkil etməkdə davam edir. Daha yüksək təhsil səviyyəsi olan insanlar iqtisadiyyatın yüksək texnologiyalı, yüksək məhsuldarlıq və yüksək maaşlı sektorlarında tələb olunur. Bu şərtlərə görə, bir çoxları təhsilə və bacarıqlara yiyələnmək üçün əhəmiyyətli vaxt və pul xərcləyirlər. Təhsil sektorunun əlçatanlığının, keyfiyyətinin və açıqlığının artırılması, korporativ idarəetmə prinsiplərinin tətbiqi, o cümlədən müasir elmi biliyə malik, ölkənin innovativ inkişafına töhfə verməyə qadir olan elmi-pedaqoji kadrların hazırlanması prioritet vəzifələrdən hesab olunur. Bu, öz növbəsində ölkə iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsinə kömək edəcək.

Azərbaycanın regionun aparıcı dövlətlərindən birinə çevrilməsi məqsədilə ölkənin təhsil sistemi dövlətin daim diqqətində olmalıdır. Azərbaycanda təhsilin inkişafı ilə bağlı yeni strategiyanın qəbulu informasiya cəmiyyətinin formalaşması və inkişafında, təhsilin keyfiyyətinin yüksəldilməsində, peşəkar kadrların hazırlanmasında, təhsilin idarəetmə sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasında əsas ola bilər [2, s.99].

Son onillikdə qabaqcıl ölkələrdə "ömür boyu təhsil" anlayışı geniş yayılmışdır ki, ona görə insan bütün iş həyatı boyu öyrənməli və bacarıqlarını təkmilləşdirməlidir. Bu, ETT ilə əlaqədar biliklərin köhnəlməsi və yenilənməsini tələb etməsi ilə bağlıdır. Bundan əlavə, təlim işçinin özünə faydalı təsir göstərir, intellektini inkişaf etdirir və peşəkar üfüqlərini genişləndirir.

Sağlamlıq kimi bir amilin önəmliliyini də vurğulamaq lazımdır, lakin insan kapitalının bu komponentinə investisiyaların nəticələrinin görünmə müddəti təhsilə qoyulanlardan xeyli uzundur. İnsan kapitalının əsaslarından birini

təşkil edən sağlamlıq kapitalıdır ki, o,insanı qorumaq və fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə qoyulan sərmayəni təmsil edir. Sağlamlığa investisiyalar insanın iş ömrünü uzadır, həmin kapitalın işləmə müddətini artırır. İnsanın sağlamlıq vəziyyəti onun təbii kapitalıdır, bir hissəsi irsi xarakter daşıyır, digər hissəsi isə fərdin və cəmiyyətin xərcləri nəticəsində əldə edilir. İnsanın ömrü boyu insan kapitalı köhnəlir, lakin səhiyyəyə məqsədəuyğun və iqtisadi cəhətdən zəruri investisiyalar bu prosesi ləngidir.

**İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi və səmərəli istifadəsi istiqamətləri**

Ümumiyyətlə, iqtisadiyyatın uzunmüddətli inkişafı, o cümlədən onun innovativ inkişafı ölkənin rəqabət qabiliyyətinin artırılmasına töhfə verən insan kapitalının keyfiyyəti ilə bağlı problemlərin həllini tələb edir. Azərbaycanda iqtisadi transformasiyalar şəraitində, insan kapitalının inkişafı prosesində fasiləsizlik, əmək məhsuldarlığının və biliyin rolunun artırılması kimi tədbirlərin dəstəklənməsi istiqamətində müxtəlif xarakterli proqram xarakterli sənədlər qəbul edilmişdir[3, s.14]. Belə sənədlərdən biri 2016-cı ildə təsdiq edilmiş və ölkənin əsas prioritet sahələrinin inkişafını nəzərdə tutan strateji yol xəritəsidir. Həmin sənəddə hədəflərdən biri insan kapitalının inkişafına həsr olunmuşdur. Buradaonun əmək məhsuldarlığının, istehsal və xidmət sektorlarının rəqabətədözümlülüyünün yüksəldilməsində, iqtisadi inkişafın davamlılığında, davamlı iqtisadi artımda, ölkənin beynəlxalq bazarlara inteqrasiyasında önəmli rol oynadığı vurğulanır. Bu məqsədlərə nail olmaq üçün bütün səviyyələrdə təhsilin keyfiyyətinin yaxşılaşdırılması, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi vasitəsilə işçilərin bilik və bacarıqlarının artırılmasında fasiləsizliyin təmin edilməsi, ixtisaslı kadrların əmək bazarının tələblərinə uyğun hazırlanması, tədqiqat və inkişaflara investisiya qoyuluşunun stimullaşdırılması və ümumilikdə insan kapitalının istifadəsinin səmərəliliyinin yüksəldilməsi əsas tələblər kimi irəli sürülür[1].

Beləliklə, ölkənin uzunmüddətli iqtisadi inkişafının əsas amillərindən biri məhz insan kapitalının keyfiyyətidir. İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi, onun həcminin artırılması təhsilin, səhiyyənin daha yüksək və təkmil səviyyəsini təmin etməklə, habelə ümumi mədəniyyət səviyyəsini yüksəltməklə artırıla bilər. Bu, təhsil və səhiyyə sistemlərində islahatların aparılmasını, xüsusən də bu sahələr üzrə maliyyələşmənin artırılmasını tələb edir. İnsan kapitalının keyfiyyətini yüksəltmək üçün infrastrukturu, səhiyyə və təhsil sistemlərini inkişaf etdirmək, əhalinin həyat keyfiyyətini yüksəltmək lazımdır. Bu, insan kapitalının inkişafının tənzimlənməsi sahəsində sistemli dövlət siyasətinin hazırlanmasını və reallaşdırılmasını tələb edir ki, bu da ölkəmizə və onun regionlarına iqtisadi artımın və inkişafın keyfiyyətcə yeni səviyyəsinə qalxmağa imkan verəcək.

Təhsil və səhiyyə sistemlərini keyfiyyətcə dəyişmək, bu sahələrə ayrılan vəsaiti artırmaq lazımdır. Digər tərəfdən, ETT-nin tələblərinə cavab verə bilən, yaradıcı düşünə bilən və əmək bazarının dəyişən şərtlərinə çevik reaksiya verən ixtisaslı kadrların hazırlanması əhalinin rifahının və yaşayışının yüksək səviyyəsini təmin edəcəkdir.

**Nəticə**

Hazırda makrosəviyyədə insan kapitalının təkrar istehsalı problemlərinin təhlili zamanı ondan istifadə səviyyəsinin və keyfiyyətinin yüksəldilməsini təmin edən zəruri şəraitin yaradılmasına və müvafiq institusional mühitin formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir. İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi və səmərəli istifadəsi üçün onun dövlətin dəstəyi ilə inkişaf etdirilməsi, bunun üçün yeni dövlət siyasətinin hazırlanması və mövcud olanların təkmilləşdirilməsi tələb olunur.Ölkənin insan kapitalının inkişafı üçün dövlət siyasəti alətləri kimi aşağıdakılar təklif olunur:

1. İnsanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş yerli, region və dövlət səviyyələrində tənzimləyici normativ hüquqi aktlar sisteminin hazırlanması və qəbulu.
2. İnsan kapitalını inkişaf etdirmək, əlaqələndirmək və unifikasiya etmək məqsədilə dövlətin bütün səviyyələrində onun idarə edilməsi üzrə ixtisaslaşmış qurumların yaradılması.
3. İnsan kapitalının idarə olunmasında və ona nəzarətdə proqram-hədəf metodunun tətbiqi.

4. İntellektual kapitalın təkmilləşdirilməsi yolu ilə insan kapitalının keyfiyyətinin inkişafı.
5. Təhsilə dövlət xərclərinin artırılması.
6. Ölkədə əhalinin sayına uyğun olaraq insan kapitalına investisiyaların artırılması və bu investisiyaların qoyulması mexanizmlərinin təkmilləşdirilməsi.

Deməli, milli iqtisadi inkişafda insan kapitalının rolu böyükdür, post-sənaye cəmiyyəti şəraitində o, ölkənin və onun regionlarının inkişaf amilidir, maddi resursları məhdud olan, əsasən bilik iqtisadiyyatından istifadə edən innovativ iqtisadiyyatın formalaşdırılması amilidir. Buna görə, insan kapitalına investisiyalar uzunmüddətli perspektivdə fiziki kapitala investisiyalardan daha sərfəlidir. Çünki fiziki kapital tükənir və insan kapitalı isə dəyişən şərtlərə çeviklik nümayiş etdirir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 6 dekabr 2016
2. Cəfərova N.B. İnsan kapitalı yaradıcılıq vasitəsi kimi. Audit 2022, 3 (37), s. 93-102.
3. Hüseynov H., İbrahimov E. Əmək məhsuldarlığının yüksəldilməsində insan kapitalının rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, № 11, 2019, s.12- 24
4. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı: “Çap ART” Nəşriyyatı, 2017, 28 s.
5. Osmanov İ.O. Bilik iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətləri. Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri. Beynəlxalq elmi konfrans. Sumqayıt Dövlət Universiteti, 26–27 may2022, s.66-69
6. Кокуйцева, Т. В. Человеческий капитал: основные теоретические подходы к анализу и оценке / Т. В. Кокуйцева, А. В. Неверов // Друкеровский вестник. – 2020. № 3(35). С. 19-36
7. Рябых, В. Н. Социально-экономический аспект человеческого капитала в современной глобальной экономике / В. Н. Рябых, Е. Б. Рябых // Вестник Тамбовского университета. Серия: Гуманитарные науки. – 2015. – № 9(149). – С. 129-136
8. https://www.stat.gov.az/source/finance/
9. https://www.stat.gov.az/source/system_nat_accounts/
10. https://www.datapandas.org/ranking/hdi-by-country

**Заур Рауф оглы АСАДОВ** к.э.н.
учитель**,** АГУНП- кафедра“Экономика промышленности ".
ORCID**:** 0000-0002-4205-4109
E-mail: asadovz@mail.ru

**Севиндж Агабала кызы МАМЕДОВА**
Лаборант кафедры "Экономика промышленности" АГУНП**,**
E-mail: n.a.mamedova.87@gmail.com

# ПУТИ ПОВЫШЕНИЯ КАЧЕСТВА И ИСПОЛЬЗОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА

Резюме

Переход к инновационной экономике невозможен без повышения эффективности подготовки специалистов различного уровня, способных отвечать современным требованиям. Более того, для инновационной экономики важно не только получение качественного образования, но и целеустремленность, мобильность, творческое и морально-этическое отношение к работе, способность учиться на протяжении всей жизни и т. д. важно развивать

такие личностные качества, как: все дело в человеческом капитале. Эффективное развитие этого капитала требует совместных усилий гражданского общества,государства, образовательных учреждений и субъектов предпринимательства. Важно, чтобы важность человеческого капитала оставалась в центре внимания, а усилия по его развитию продолжались и углублялись в будущем. С точки зрения упомянутого, тема статьи выделяется своей актуальностью. В статье исследована роль человеческого капитала в экономике, его взаимодействие с экономическими категориями, необходимость его инвестирования, некоторые показатели, отражающие уровень его развития, рассмотрены пути повышения его качества и использования, в связи с чем выдвинуты предложения рекомендательного характера.

**Ключевые слова:** человеческий капитал, инновации, инвестиции, образование, здравоохранение, конкуренция

Zaur Rauf oglu ASADOV PhD.
ASUNP- department"Industrial Economics ". ORCHID: 0000-0002-4205-4109
E-mail: asadovz@mail.ru

Sevinj Agabala MAMMADOVA
Laboratory **assistant at the** Department of Industrial Economics of ASUNP**,**
E-mail: n.a.mamedova.87@gmail.com

## WAYS TO IMPROVE THE QUALITY AND USE OF HUMAN CAPITAL

Summary

Resume The transition to an innovative economy is impossible without increasing the effectiveness of training specialists at various levels who are able to meet modern requirements. Moreover, for an innovative economy, it is important not only to receive high-quality education, but also dedication, mobility, creative and moral and ethical attitude to work, the ability to learn throughout life, etc. it is important to develop such personal qualities as: it's all about human capital. The effective development of this capital requires the joint efforts of civil society, the State, educational institutions and business entities. It is important that the importance of human capital remains in the spotlight, and efforts to develop it continue and deepen in the future. From the point of view of the above, the topic of the article stands out for its relevance. The article examines the role of human capital in the economy, its interaction with economic categories, the need for its investment, some indicators reflecting the level of its development, considers ways to improve its quality and use, and therefore makes recommendations.

**Keywords:** human capital, innovation, investment, education, healthcare, competition